

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 109 (21.770)

*9 iyun 2017-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## R.N.Novruzovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rafiq Novruz oğlu Novruzov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 iyun 2017-ci il*

## Naxçıvan Beynəlxalq Hava Limanı may ayında 22 mindən artıq sərnişinə xidmət göstərmişdir




Naxçıvan Beynəlxalq Hava Limanında aparılan yenidənqurma işləri sərnişinlərin rahatlığına və qeydiyyat-nəzarət sisteminin daha çevik təşkilinə imkan verir. Bu da muxtar respublikada hava nəqliyyatından istifadə edənlərin sayının artmasına səbəb olmuşdur. Belə ki, may ayında yerli hava xətti ilə 21 min 701 sərnişin, 319 min 82 kiloqram baqaj, 28 min 316 kiloqram yük və 3192 kiloqram poçt daşınması həyata keçirilmişdir. Beynəlxalq hava xətti ilə Naxçıvan-Moskva reysi ilə 315 sərnişin, 2568 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 322 sərnişin və 3659 kiloqram baqaj daşınmışdır.

Uçuşların vaxtında və təhlükəsiz təşkili məqsədilə hava gəmilərinə, bütün növ xidmət vasitələrinə vaxtlı-vaxtında texniki xidmət göstərilmiş, uçuş-enmə zolağı, dönmə yolları, perron və dayanacaqlar mütəmadi yoxlanılmış, təmir işləri görülmüşdür. Yanğın təhlükəsizliyi və qəza-xilasetmə komandası isə hava limanı ərazisinin yanğından etibarlı mühafizəsini təmin etmiş, yanğınsöndürən avtomobillərə mütəmadi texniki xidmət göstərilmiş, xidməti ərazilərdə profilaktik yoxlamalar aparılmışdır.

***Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti***

## İqtisadiyyat Nazirliyinin əməkdaşları Çin Xalq Respublikasında keçirilmiş təlim seminarlarda iştirak etmişlər

*Müəyyən olunmuş sahələr üzrə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 3-23 may tarixlərində Çin Xalq Respublikasının Urumçi şəhərində "İpək Yolu iqtisadi kəməri ətrafında yerləşən ölkələr arasında ticarət-iqtisadi əməkdaşlıq" mövzusunda seminar keçirilmişdir. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşları Azərbaycan nümayəndə heyətinin tərkibində seminarda iştirak etmişlər.*

Seminarda Çin Xalq Respublikasının İpək Yolu üzərində yerləşən ölkələrlə ticarət-iqtisadi münasibətləri, sənaye, kənd təsərrüfatı, gömrük, ticarət, ekologiya və digər sahələrdə fəaliyyəti, Sintszyan-Uyğur muxtar rayonunun iqtisadi inkişaf modeli və perspektivləri, həmçinin Azərbaycanla ikitərəfli münasibətlərin inkişafı üzrə müzakirələr aparılmışdır.

Seminar çərçivəsində nəzəri biliklərdən başqa, həmin sahədə olan təcrübələr də nümayəndə heyətlərinə nümayiş etdirilmişdir. Belə ki, seminar çərçivəsində Urumçi şəhərinin texniki-iqtisadi inkişaf zonasının emal bazasına və sərgi zalına, "Si Yuy" yüngül sənaye bazasına, Beynəlxalq Sərgi Mərkəzinə və "E Ma" şirkətinə səfərlər təşkil edilmişdir.

Digər seminar 4-24 may tarixlərində Çin Xalq Respublikasının Kunminq şəhərində "İnkişaf etməkdə olan ölkələr üçün həmsərhəd iqtisadi əməkdaşlıq zonalarına dair" təlim seminar olmuşdur.

Təlim müddəti ərzində Yunnan Maliyyə və İqtisadiyyat Universitetinin müəllimləri, rəsmi qurumlar və iri şirkətlərin təmsilçiləri tərəfindən Çin Xalq Respublikasında aparılan iqtisadi islahatlar, Çin hökumətinin Qovşaq və Yol Təşəbbüsü çərçivəsində inkişaf etməkdə olan ölkələrlə iqtisadi-ticarət əlaqələrinin gücləndirilməsi, qonşu ölkələrlə həyata keçirilən birgə infrastruktur layihələri və həmsərhəd iqtisadi əməkdaşlıq zonalarının yaradılması barədə mühazirələr oxunmuşdur.

Həmçinin seminar çərçivəsində Çinin müxtəlif şəhərlərində yerləşən istehsal, xidmət, tikinti sahələrində fəaliyyət göstərən iri şirkətlərə və azad iqtisadi zonalara (parklara) səfərlər təşkil olunmuş və həmin qurumların rəsmiləri ilə görüşlər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşlarının Çin Xalq Respublikasında keçirilmiş təlim seminarlarda iştirak etmələrinin əsas məqsədi onların nəzəri biliklərinin artırılması, innovativ tədris metodologiyalarının mənimsənilməsi, Çin müəssisələrinin fəaliyyəti ilə, istehsalatda tətbiq edilən mütərəqqi texnologiyalarla, keyfiyyət sistemləri və sair ilə tanış olmalarının təmin edilməsidir. Onlar əldə etdikləri bilik və təcrübələri gələcəkdə muxtar respublikada keçiriləcək maarifləndirici tədbirlərdə iştirakçılara çatdıracaqlar.

Sonda təlim iştirakçılarına sertifikatlar verilmişdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

***İyunun 8-də Sədərək Rayon İcra Hakimiyyəti Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələr barədə tədbir keçirib. Tədbiri giriş sözü ilə açan Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov son illərdə rayonda sığorta sahəsində görülmüş işlərdən danışıb.***

## Sığorta sahəsində görülmüş işlər müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxışında müasir dövrdə muxtar respublikamızın hərtərəfli inkişafında sığorta fəaliyyətinin rolundan danışıb. Bildirib ki, sığorta işinin müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsi daima dövlətin diqqət mərkəzindədir. İqtisadi inkişafı şərtləndirən əsas amillərdən biri olan sığorta muxtar respublikamızda iqtisadi fəallığın yüksəldilməsinə xidmət edir. Bu da, öz növbəsində, sığorta münasibətlərinin inkişafına geniş zəmin yaradır. Belə ki, insanlara maddi zərərlər vuran müxtəlif gözlənilməz hadisələr baş verdikdə verilən sığorta ödənişləri dəymiş maddi zərərlərin əvəzini ödəməyə imkan verir.

Hikmət Əsgərov son dövrlərdə baş vermiş sığorta hadisələrindən konkret misallar gətirməklə vaxtında sığorta müqaviləsi bağlatdırmağın faydalı cəhətlərini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, ötən müddət ərzində Sədərək rayonunda hüquqi və fiziki şəxslərin sığortaya cəlb olunması istiqamətində xeyli iş görülüb, müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayında artım olub. Belə ki, rayonda cari ilin ilk beş ayında sığorta haqlarının toplanması ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz, sığorta müqavilələrinin sayı isə 25 ədəd artıb. Rayonda daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı sığortası, fərdi qəza sığortası və digər sığorta növləri üzrə mövcud vəziyyət təhlil olunaraq qeyd edilib ki, görülmüş işlərlə bərabər, bəzi icbari sığorta növləri üzrə müqavilələrin bağlanılmasında müəyyən çatışmazlıqlar da vardır. Belə ki, Sədərək rayonunda hələ də daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır.

Vurğulanıb ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığorta olunmalı olan hər bir obyektin sığortası təmin edilməlidir. Bunun üçün isə qarşıya qoyulmuş vəzifə muxtar respublikamızda sığorta işi sahəsində əldə olunmuş müsbət dinamikanın qorunub saxlanılması və əhali arasında maarifləndirmə işlərinə diqqətin artırılmasıdır. Tədbirdə könüllü sığortaların, o cümlədən kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunulub. Bununla əlaqədar qeyd olunub ki, Sədərək rayonunda bu sahədə fermer və torpaq mülkiyyətçiləri, kənd təsərrüfatı texnikaları sahibləri ilə aparılan maarifləndirmə işləri genişləndirilməlidir. Kənd təsərrüfatı sığortası ilə yanaşı, əmlakının sığortası, fərdi qəza sığortası və digər könüllü sığortaların inkişafı, son nəticədə, insanların rifahının yüksəldilməsinə xidmət edir.

Tədbirdə Sədərək Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi qrupunun baş dövlət avtomobil müfəttişi İlkin Məmmədov, Sədərək Rayon Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi Zamiq Məmmədov, Qaraağac kənd icra nümayəndəsi Şərafəddin Şükürov icbari sığortalar sahəsində görülmüş işlərin vəziyyəti barədə məlumat veriblər.

Tədbirə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov yekun vurub.

**✍ Əli CABBAROV**

## Sosial tədbirlərin əhatə dairəsi genişlənir

***Cari ilin may ayında Naxçıvan Muxtar Respublikasında işaxtaran vətəndaşların münasib işlə təmin olunması məqsədilə aktiv məşğulluq tədbirləri davam etdirilmiş, 198 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə, 13 nəfər müvafiq peşə kurslarına cəlb edilmiş, 17 nəfər isə kənd xidmət mərkəzlərində müvafiq işlə təmin olunmuşdur. Onlardan 13-ü məhdud fiziki imkanlı, 4-ü isə aztəminatlı ailələrin əmək qabiliyyətli üzvləridir.***

Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunur. May ayında "bərbər" kursunu 14 nəfər bitirmişdir. Hazırda "bərbər-manikürçü", "dayə" və "xalçaçı" peşələri üzrə kurslar davam etdirilir. Qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqaviləsinin bağlanması, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsi ilə bağlı 43 obyektdə, o cümlədən işçilər üçün müvafiq əmək şəraitinin yaradılması, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət edilməsi ilə əlaqədar 30 obyektdə nəzarət tədbirləri görülmüşdür.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu kateqoriyadan olan uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, müxtəlif sosial xidmətlərin göstərilməsi davam etdirilmişdir. Reabilitasiya təlimlərinə 129 uşaq cəlb olunmuşdur. Tədrisə cəlb olunan hərəkət və eşitmə qabiliyyəti məhdud uşaqlar üçün distant dərslərin keçilməsi davam etdirilmişdir. Həmçinin ötən ay eşitmə qabiliyyəti məhdud uşaqlar arasında imla yazı müsabiqəsi keçirilmiş, bu qəbildən olan uşaqların iştirakı ilə 4 kiçikhəcmli videokitab hazırlanmışdır. Bakı şəhərindən dəvət olunmuş eşitmə qabiliyyəti məhdud şəxslərin tədrisi ilə məşğul olan müəllimin müşayiəti ilə sağlamlıq imkanları məhdud uşaqların tarixi abidələrə və muzeylərə ziyarətləri təşkil edilmişdir. Həmçinin 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə sağlamlıq imkanları məhdud uşaqların istirahət guşələrinə, tarixi abidələrə və muzeylərə ekskursiyaları təşkil edilmiş, Naxçıvan Dövlət Uşaq Teatrında bu kateqoriyadan olan uşaqların ifasında hazırlanan tamaşa nümayiş etdirilmiş, hemofiliyalı və talassemiyalı uşaqlar üçün qanvermə aksiyası keçirilmişdir.

İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda paralimpiyaçılar arasında futzal üzrə Naxçıvan Muxtar Respublika turniri keçirilmişdir.

May ayında tənha yaşayan və yardıma ehtiyacı olan 231 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, həmçinin 10 nəfərə Ahıllar Evində stasionar sosial xidmət göstərilmiş, Şağan Müharibə Əlilləri üçün Müalicə Pansionatında 9, Respublika Əlillərin Bərpa Mərkəzində 1, Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 16 şəxsin, Naxçıvan Uşaq Bərpa Mərkəzində isə sağlamlıq imkanları məhdud 5 uşağın müalicəsi təşkil edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Muxtar respublikamızda uğurlu sosial-iqtisadi inkişaf strategiyasının ardıcıl həyata keçirilməsi bütün sahələrdə olduğu kimi, əmlak-torpaq münasibətlərinin yeniləşməsinə, daşınmaz əmlak idarəçiliyinin yeni mexanizmlərinin formalaşmasına təkan verib. Daşınmaz əmlak sahiblərinin, vətəndaşların və sahibkarlıq subyektlərinin öz əmlakları üzərindəki hüquqlarının etibarlı qorunması, qeydiyyat-kadastr sisteminin modernləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib.***

# Daşınmaz əmlakın qeydiyyatı onun toxunulmazlığının və müdafiəsinin təminatçısıdır

Ölkəmizdə daşınmaz əmlakın qeydiyyatı tarixi təxminən iki əsr əvvəldən başlayır. 1814-cü ildə ilk əmlakın qeydiyyatına dair məlumatlara rast gəlinir. Naxçıvan İnqilab Komitəsinin qərarı ilə 1920-ci ildə yaradılan ilk torpaq şöbəsi Naxçıvan ərazisində torpaqlara nəzarət edib, ölçü, planaalma və qeydiyyat işlərini yerinə yetirib. Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin arxivində Naxçıvanda daşınmaz əmlakın qeydiyyatı ilə bağlı XX əsrin əvvəllərinə aid çoxsaylı sənədlər qorunub saxlanılır.

Dövlət müstəqilliyimizin bərpasından sonra xüsusi mülkiyyət, azad sahibkarlıq və sağlam rəqabətə əsaslanan yeni iqtisadi münasibətlər sisteminin formalaşması üçün mülkiyyət münasibətlərinin kökündən dəyişdirilməsi zərurətə çevrildi. İctimai həyatda və dövlət quruculuğunda ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə aparılmış köklü islahatlar nəticəsində ardıcıl və sistemli iqtisadi proqramlar işlənib hazırlandı, yeni mülkiyyət münasibətləri, eyni zamanda mülkiyyət hüquqlarının qeydiyyatı, müdafiəsi və toxunulmazlığı ilə bağlı qanunvericilik bazası formalaşdırıldı.

Hüquqi dövlətdə və demokratik cəmiyyətdə mülkiyyət münasibətləri hüquqi təminatla birbaşa bağlıdır. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən hər kəsin mülkiyyət hüququ var və mülkiyyət hüququ qanunla qorunur. Mülkiyyət hüquqlarının müdafiəsi dövlətin ən mühüm vəzifələrindən biridir.

Konstitusiyamız və beynəlxalq hüquq mülkiyyəti toxunulmaz elan etməklə bərabər, həm də mülkiyyət hüququnun dövlət tərəfindən müdafiəsinə təminat verir. Bununla yanaşı, daşınmaz əmlaka mülkiyyət hüququnun yaranması və müdafiə olunması dövlət qeydiyyatı ilə əlaqələndirilir. Belə ki, dövlət qeydiyyatdan keçməmiş hüquqların müdafiəsinə və toxunulmazlığına zəmanət vermir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən daşınmaz əmlaka mülkiyyət hüququ onun verilməsinin daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan əldə edənə keçir.

Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 67 və 68-ci maddələrində qeyd olunur ki, torpaq sahəsi üzərində hüquqlar torpaq sahələrinin verilməsi barədə müqavilənin dövlət qeydiyyatından keçirilməsindən sonra yaranır. “Torpaq bazarı haqqında” Azərbaycan Respublikası Qanununun 19-cu maddəsində deyilir ki, qeydiyyatdan keçməmiş hüquqların müdafiəsinə və toxunulmazlığına təminat verilmir.

Qanunvericiliyin müddəalarından görünür ki, daşınmaz əmlaka mülkiyyət hüququnun tam həcmdə əldə edilməsi və dövlət tərəfindən müdafiə edilməsi baxımından hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması mühüm əhəmiyyət kəsb edir, eyni zamanda zəruri şərtdir. Mülkiyyət hüququnun təminatı mexanizmi məhz daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat əsasında həyata keçirilir. Əmlakın dövlət reyestrində qeydiyyatı əmlaka dair mülkiyyət hüququnu təsdiqləyən sənədlərin həqiqiliyinə və əsaslılığına təminatdır, həmçinin bu hüququn pozulmasının və mübahisələndirilməsinin qarşısını alır.

Daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatı ərizənin və ərizəyə əlavə olunan sənədlərin, o cümlədən dövlət rüsumunun ödənilməsi haqqında sənədin qeydiyyat orqanına təqdim edilməsi ilə başlayır. Qəbul edilmiş sənədlərdə göstərilən məlumatın dövlət reyestrində saxlanılan məlumatla uyğunluğu yoxlanılır, bəyan olunan hüquqlarla qeydiyyata alınmış hüquqlar arasında ziddiyyətlərin, habelə hüquqların dövlət qeydiyyatından imtina edilməsi və ya hüquqların dövlət qeydiyyatının dayandırılması üçün digər əsasların olub-olmaması müəyyən edilir. Hüquqların dövlət qeydiyyatından imtina edilməsi və ya qeydiyyatın dayandırılması üçün əsas olmadığı halda təsdiqləyici sənədlər üzərində qeydlər yazılır və müvafiq məlumat dövlət reyestrinə daxil edilir.

Daşınmaz əmlak üzərində hüquqların mövcudluğunu, əldə edilməsini, başqasına keçməsini, məhdudlaşdırılmasını və onlara xitam verilməsini təsdiq edən sənədlər hüquqların dövlət qeydiyyatı üçün qanunla müəyyən edilmiş tələblərə uyğun olmalıdır. Təqdim olunmuş sənədlərdə mətnlər aydın yazılmalı, hüquqi və fiziki şəxslərin adları tam şəkildə göstərilməlidir. Pozulmuş, sonradan əlavə edilmiş, silinmiş sözlər və həqiqiliyi təsdiqlənməmiş digər düzəlişlər olan, habelə məzmununu birmənalı başa düşmək imkanı verməyən dərəcədə zədələnmiş sənədlər hüquqların dövlət qeydiyyatı üçün qəbul edilmir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 16 iyul tarixli Fərmanı ilə “Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən Çıxarış”ın və “Torpaq sahəsinin planı və ölçüsü”nün təsviri təsdiq edilmişdir.

Muxtar respublikamızda daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının əmələ gəlməsi və başqasına keçməsi Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən verilən dövlət reyestrindən çıxarışla rəsmiləşdirilir.

Göstərilən dövlət qayğısı nəticəsində komitədə qeydiyyat prosesinin operativ həyata keçirilməsi məqsədilə zəruri infrastruktur yaradılmış, daşınmaz əmlakın dövlət reyestrinin aparılması üçün informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq edilmişdir. Hazırda komitə tərəfindən göstərilən və “Elektron Hökumət” portalına inteqrasiya olunmuş 27 növ elektron xidmətdən 19-u daşınmaz əmlakın qeydiyyatı ilə bağlıdır.

Qeydiyyat prosedurlarına əlçatanlığın və vətəndaşların rahatlığının təmin edilməsi üçün komitənin və rayon (şəhər) idarələrinin mütəxəssislərindən ibarət səyyar xidmət qrupu yaradılmışdır. Yerlərdə xidmətin yüksək səviyyədə təşkili məqsədilə qrup zəruri avadanlıqlarla təchiz edilmiş mobil ofislə təmin olunmuşdur.

Muxtar respublika iqtisadiyyatında müşahidə olunan dinamik inkişaf, əhalinin iqtisadi fəallığı, eləcə də qeydiyyat prosedurlarının sadələşdirilməsi nəticəsində vətəndaşların əmlak münasibətlərinin aktiv iştirakçısına çevrilməsi və əhali arasında aparılan davamlı maarifləndirmə tədbirlərinin nəticəsi olaraq qeydiyyata alınan əmlakların sayında sürətli artım müşahidə olunmaqdadır. Belə ki, 2010-cu il ərzində dövlət reyestrinin bütün bölmələri üzrə 3529 daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüququ qeydə alınmışdısa, bu rəqəm 2016-cı ildə 5845-ə çatmışdır. Bu isə 1,6 dəfə artım deməkdir. Müqayisə olunan dövrdə mülkiyyət hüququ dövlət qeydiyyatına alınan torpaq sahələri 1130-dan 2909-a, fərdi yaşayış evləri 1410-dan 1765-ə, mənzillər 852-dən 945-ə, qeyri-yaşayış binaları 43-dən 60-a qədər artmışdır. Bu göstəricilər muxtar respublikada daşınmaz əmlaka yatırımların artdığını əks etdirir ki, bu da əhali gəlirlərinin ilbəil yüksəlməsinin nəticəsidir.

***Daşınmaz əmlakın qeydiyyatında baş verən yeniliklər və bu prosesin sadələşməsi muxtar respublikamızda əhalinin qısa zaman ərzində əmlakını qeydiyyatdan keçirərək onun toxunulmazlığını təmin etməsi ilə bərabər, əmlakdan istifadənin səmərəliliyini də yüksəltmişdir.***

**Nurlan FƏTƏLİYEV**
***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin aparat rəhbəri***

# Əhalinin və torpaq sahələrinin su təminatı diqqət mərkəzindədir



May ayında muxtar respublikada torpaq sahələrinin suvarma su təchizatının yaxşılaşdırılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Bu dövrdə su itkisinin qarşısını almaq, suvarmanı yaxşılaşdırmaq, yeni torpaq sahələrini əkin dövriyyəsinə daxil etmək məqsədilə Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 400 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, ümumilikdə, muxtar respublika ərazisində 17 kilometr magistral kanal, 46 kilometr ara arxları və 2 kilometr kollektor lildən təmizlənmiş, 14 kilometr yeni suvarma boru xətti çəkilmişdir.

Yaşayış məntəqələrini və əkin sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə Naxçıvançay, Cəhriçay və Arpaçay selovunda 2 kilometrdən artıq istiqamətləndirici bənd tikilmişdir.

Naxçıvan Muxtar Respublikası ərazisində əhalinin içməli su təminatını yaxşılaşdırmaq məqsədilə həyata keçirilən tədbirlər də davam etdirilmişdir. Belə ki, ötən ay rayon suvarma sistemləri idarələri tərəfindən muxtar respublika üzrə 8 kilometr içməli su xətti çəkilmişdir. “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı” layihəsi çərçivəsində isə Şərur rayonunda 5 kilometr su və 7 kilometr kanalizasiya xəttinin çəkilişi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

# Muxtar respublikada heyvandarlığın inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilir

***Kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatının aparıcı qüvvəsi olub, əhalinin səmərəli məşğulluğunun və özünüməşğulluğunun təmin edilməsində mühüm sahədir.***



Muxtar respublikada bütün sahələrlə yanaşı, kənd təsərrüfatı sahəsinin inkişafı da ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz müstəqilliyimizin ilk illərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə ümummilli liderimiz kənd təsərrüfatının inkişafı ilə bağlı mühüm tədbirlər həyata keçirmişdir. Belə ki, 1992-ci il aprelin 6-da keçirilən sessiyada “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” və “Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar qəbul edilmiş, bununla da, Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmış, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşmış, daxili bazarda məhsul bolluğu yaradılmışdır.

Sonrakı dövrlərdə kənd təsərrüfatının şaxələndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, dinamik inkişaf qorunub saxlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın icrası muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində qarşıya qoyulmuş vəzifələrin kompleks şəkildə həyata keçirilməsinə geniş imkanlar yaratmışdır.

Əhalinin yerli ərzaq məhsulları ilə təminatında və emal sənayesinin inkişafında mühüm yer tutan heyvandarlıq sahəsi üzrə də müvafiq işlər görülmüş, mal-qara və heyvanların təbii yem bazası ilə təmin olunması məqsədilə torpaq sahələrinin suvarma suyuna olan tələbatının səmərəli ödənilməsi və kənd təsərrüfatı məhsulları istehsalçılarına suvarma suyunun çatdırılması mexanizmi daha da təkmilləşdirilmiş, su anbarları əsaslı təmir edilmiş, yeni nasos stansiyaları, subartezian quyuları tikilmiş və ya bərpa olunmuşdur.

Yüksək və keyfiyyətli heyvandarlıq məhsullarının əldə edilməsi məqsədilə ötən dövr ərzində Naxçıvan şəhərində “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqı tərəfindən istehsal gücü saatda 3-3,5 ton və 10 ton olan iki qarışıq yem istehsalı sahəsi yaradılmış, Naxçıvan Muxtar Respublikası “Bərəkət Buğda Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən gündəlik istehsal gücü 10 ton olan qarışıq yem istehsalı sahəsinin yaradılması davam etdirilir. Bundan əlavə, Şərur rayonunda gündəlik istehsal gücü 10 ton olan qarışıq yem və Culfa rayonunda gündəlik istehsal gücü 500 kiloqram olan yem istehsalı sahələri yaradılmışdır.

Muxtar respublikada heyvandarlıq sahəsinin inkişafı istiqamətində təsərrüfat subyektlərinə dövlət maliyyə dəstəyinin göstərilməsi istiqamətində təkcə 2016-cı ildə bu sahəyə 8 milyon manatdan artıq həcmdə kreditlər verilmişdir.

Əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsində mühüm təsir vasitəsi olan baytarlıq təbabəti üzrə ixtisaslı kadrların hazırlanması, aqrar sahənin elmi təminatının yaxşılaşdırılması məqsədilə Naxçıvan Dövlət Universitetində Baytarlıq təbabəti ixtisası açılmış, müasir tədris ocağı istifadəyə verilmişdir. Bundan əlavə, Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisas üzrə yeni laboratoriya və fənn kabinələri yaradılmış, maddi-texniki baza gücləndirilmişdir.

Heyvandarlığın inkişafı üzrə həyata keçirilən dəstəkləyici tədbirlər muxtar respublikada iribuynuzlu mal-qara və xırdabuynuzlu heyvanların baş sayının dinamik artımını təmin etmişdir. Belə ki, 2016-cı ilin sonuna muxtar respublikada 110806 baş qaramal, 672014 baş xırdabuynuzlu heyvan mövcud olmuşdur ki, bu da 1990-cı ildəki göstəriciləri müvafiq olaraq 1,8 və 2,7 dəfə üstələmişdir.

Muxtar respublikaya son dövrlər ərzində 1937 baş damazlıq cins malqaranın, ətlik və südlük toxum preparatlarının alınıb gətirilməsi, yeni süni mayalanma məntəqələrinin istifadəyə verilməsi heyvandarlıq sahəsinin inkişafına ciddi təkan vermişdir. Azərbaycan Respublikası Prezidentinin “Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında” 2015-ci il 19 avqust tarixli Sərəncamı ilə süni mayalanma yolu ilə alınmış hər baş buzova görə 100 manat həcmində subsidiyanın müəyyən olunması bu sahənin inkişafına stimul yaratmışdır. Təkcə 2016-cı ildə heyvandarlıq təsərrüfatlarında 8237 baş mal-qara süni yolla mayalandırılmış, bu dövr ərzində 3584 baş sağlam bala alınmışdır.

Mal-qara və heyvanların baş sayının və cins tərkibinin yaxşılaşdırılması heyvandarlıq məhsullarının istehsalının artmasına zəmin yaratmış, 2016-cı ildə muxtar respublikada diri çəkidə 25765,7 ton ət, 81371,6 ton süd istehsal edilmişdir. 1990-cı illə müqayisədə ət istehsalı 2 dəfə, süd istehsalı 2,7 dəfə artmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

# Ölkənin aparıcı media nümayəndələrinin Naxçıvan təəssüratları

***Xəbər verdiyimiz kimi, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə 31 may-2 iyun tarixlərində ölkəmizin aparıcı media nümayəndələri muxtar respublikada səfərdə olublar. Səfər çərçivəsində onlar qədim diyarımızın tarixi abidələri, istehsal, təhsil, mədəniyyət müəssisələri, gəzməli-görməli yerləri ilə tanış olublar. Media nümayəndələri Naxçıvan televiziyasının baş redaktoru Təhminə Babayevaya müsahibələrində Naxçıvan təəssüratları barədə danışıblar.***

***Vüqar SƏFƏRLİ – KİVDF-nin icraçı direktoru:*** "Biz artıq ikinci dəfədir ki, müxtəlif mətbuat orqanlarının nümayəndələri ilə Naxçıvana səfər edirik. Birinci səfərimiz keçən ilin oktyabr ayına təsadüf etmişdi. 20 nəfərdən ibarət, əsasən, baş redaktorların təmsil olunduğu bir heyətlə gəlmişdik. Burada media qurumları ilə əlaqələrin genişləndirilməsi məqsədilə konfrans keçirdik. Naxçıvanı gəzdik, onları buradakı tarixi abidələrlə tanış etdik. İlk səfərdən sonra ölkə mətbuatında Naxçıvan, onun inkişafı haqqında yazılar verilmişdi.



Budəfəki gəlişimizin məqsədi Naxçıvanda turizmin inkişafı ilə bağlı medianın roluna həsr olunmuş tədbir keçirilməsidir. Naxçıvan güclü turizm potensialına malikdir. Bu, mediada geniş işıqlandırılmalıdır. Qərara almışıq ki, media rəhbərləri buradan qayıdandan sonra Naxçıvanın turizm potensialı ilə bağlı geniş məqalələr yazsınlar".

***Müşfiq ƏLƏSGƏRLİ – Azərbaycan Mətbuat Şurasının sədr müavini:*** "90 ildən artıq bir müddətdə blokadada yaşamağın, amma bu blokadanın təsirlərini heçə endirərək bu qədər inkişaf etməyin dünyada analoqu yoxdur.



Naxçıvanda turizm obyektləri, tarixi yerlər kifayət qədər çoxdur. Biz keçən dəfə Əlincə qalasında, Duzdağda olduq, başqa abidələrə baş çəkdik. Doğrudan da, buranın böyük turizm potensialı var və hesab edirəm ki, təbliğat aparıldıqca əcnəbi turistlərin əsas üz tutacağı mərkəzlərdən biri də Naxçıvan olacaq.

Naxçıvanda turizm obyektlərini gəzmək, görmək, burada qalmaq, istirahət etmək üçün gözəl infrastruktur qurulub. Nəqliyyat, təminat ən yüksək səviyyədədir. Şəhərin görkəmi də çox gözəldir. Burada qədim Şərq arxitekturası ilə müasir şəhərsalma üslubunun birləşdirilməsindən qəribə bir sintez yaradılıb ki, buna da başqa yerlərdə rast gəlmək mümkün deyil. Yəni bilirsiniz ki, müasir dünyada modern tikililər, göydələnlər klassik şəhərsalma arxitekturasına ciddi zərbə vurur. Amma Naxçıvan yeganə məkanlardandır ki, burada həm tarixi arxitektura, həm də modernlik vəhdət təşkil edir. İnanırıq ki, Azərbaycan jurnalistləri və mediası öz potensialını, gücünü ortaya qoyarsa, Naxçıvanın turizm potensialının tanıdılması istiqamətində böyük işlər görmək olar".

***Bəhruz QULİYEV – "Səs" qəzetinin baş redaktoru:*** "Naxçıvanda kifayət qədər muzeylər, tarixi abidələr və istirahət mərkəzləri var. Təbii müalicə obyektləri fəaliyyət göstərir. Bunların hər biri imkan verir ki, Naxçıvanda turizm inkişaf etdirilsin. Məlumdur ki, bu sahədə artıq proqram xarakterli işlər görülür. Burada bəzi məqamlarda mətbuatın üzərinə çox böyük iş düşür. Piyar xarakterli informasiyanın aparılmasına, məncə, bu gün zərurət var. Mətbuat Naxçıvanla bağlı öz işini bilməlidir. Mən bir haşiyə çıxım ki, ümumiyyətlə, Azərbaycanda son dövrlərdə turizm potensialının dünyaya çatdırılması və turizmin inkişafı istiqamətində fundamental işlər aparılır. Bu baxımdan Naxçıvanda da kifayət qədər işlər görülür. Mətbuat Naxçıvanın turizm potensialını dünyaya çatdırmağa borcludur. Mərkəzi mətbuatda bir neçə dildə məlumat vermək lazımdır. Hesab edirəm ki, Naxçıvanı və Naxçıvanın turizm potensialını Azərbaycanda, dünyada tanıtmaq üçün hər bir mətbuat orqanı konkret bir layihə hazırlamalı və bu sahədə sistemli iş aparmalıdır".



***Rəşad MƏCİD – "525-ci qəzet"in baş redaktoru:*** "Naxçıvan Azərbaycanın elə bir torpağıdır ki, biz oranı həmişə sevməliyik. Qədim tarixə malik olan bu torpağın inkişafı üçün hamımız əlimizdən gələni əsirgəməməliyik. Naxçıvanın tarixi abidələrinə çox böyük diqqət, qayğı göstərilir. Ötən səfərimizdə biz Əlincə qalasında olarkən bu çətin ərazidə bu cür abadlıq işlərinin aparılmasını heyrətlə qarşılamışdıq və düşünürdük ki, bu həm də keçmiş tariximizə, mədəniyyətimizə hörmət və ehtiramın, dərin sevginin təzahürüdür. Eyni zamanda bu, böyük təşkilatçılıq, bacarıq sayəsində mümkün olmuşdur. Xüsusən biz oradan gecə vaxtı ayrılanda qalaya çəkilən yolların işıqlandırılması və möhtəşəm görünüşü bizi təsirləndirmişdi. Bu, böyük əməyin, sevginin nəticəsidir. Tariximizə göstərdiyi diqqətə və Azərbaycan tarixində xüsusi yer tutan bu qədim abidənin bərpa edilməsinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımı bildirirəm. Azərbaycan mediası da bu işdə əlindən gələni etməyə, Naxçıvanın turizm sahəsində, digər sahələrdə olan irəliləyişini qələmə almağa, təbliğ etməyə borcludur.



Məni xüsusən Duzdağ çox heyrətləndirdi. Orada böyük işlər görülübdür. Yaxın ölkələrdən Duzdağa müalicə üçün gələn insanlar çoxdur. Naxçıvan Avtomobil Zavodunda gördüklərimiz də bizi çox sevindirdi. Gözəl "NAZ-Lifan" maşınları muxtar respublikada sənayenin güclü inkişafının göstəricisidir. Biz arzu edirik ki, gündən-günə bu inkişaf, bu güc daha da artsın".

***Vüqar RƏHİMZADƏ – "İki sahil" qəzetinin baş redaktoru:*** "Bu gün, doğrudan da, Naxçıvanda həm tarixi adət-ənənələrin yaşadılması, həm də milli irsin qorunması ilə bağlı mühüm işlər görülür. Naxçıvan, ümumiyyətlə, müsəlman aləminin ən müqəddəs ibadətgahlarının olduğu yerlərdən biridir. Məsələn, biz Əshabi-Kəhf ziyarətgahını, Möminə xatını, Nuh Peyğəmbərin türbəsini ziyarət etdik, Xan sarayında olduq. Bunlar, doğrudan da, Naxçıvanın qədim yaşayış məskəni olduğunun təsdiqləyən dəlillərdir, faktlardır.



Naxçıvan bu gün təkcə Azərbaycanın deyil, dünyanın ən müasir şəhərlərindən birinə çevrilib. Naxçıvanda görülən işlər nümunə gücündədir. Naxçıvan bu gün öz simasını dəyişib. Mən avtomobil zavodunda birinci dəfə idi olurdum. Doğrudan da, müasir, gözəl avtomobil istehsal edilir. 20-30 il əvvəl ağlımıza belə, gətirməzdik ki, Naxçıvanda belə bir avtomobil zavodu olacaq. Hesab edirəm ki, bu, çox böyük bir nailiyyətdir.

Bilirsiniz ki, Azərbaycana gələn turistlərin sayı ildən-ilə artır. Təbii ki, Naxçıvana da. Xarici ölkələrin Azərbaycandakı səfirlərinin Naxçıvana gəlişini, muxtar respublika haqqında xoş təəssüratlarını media vasitəsilə izləyirəm. Doğrudan da, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq kifayət qədər böyük imkanlara malikdir və hesab edirəm ki, bizim üzərimizə çox böyük bir məsuliyyət, şərəfli bir vəzifə düşür. O vəzifə ki Naxçıvanda real görülən işləri dünyaya çatdırmaqdır. Bu, hər bir vətəndaşın borcudur".

***Zülfiyyə QULİYEVA – "Mövqe.az" saytının müxbiri:*** "Bu, mənim Naxçıvana ikinci gəlişimdi. Əslində, mən Naxçıvanın bu qədər böyük turizm potensialına malik olduğunu bilmirdim. Gəzdikcə hər addımında, hər daşında bir tarix boylanır. Buna görə də inamla deyə bilərik ki, Naxçıvanda turizm sektorunun inkişafı üçün geniş imkanlar var.



Burada mənim diqqətimi çəkən məqamlardan biri o oldu ki, tarixi və mədəni abidələrin qorunub saxlanılmasına böyük diqqət yetirilir. Bu, çox önəmlidir. Bütün bunları gördükdən sonra mən də bir media nümayəndəsi kimi Naxçıvanın gəzməli-görməli yerləri, tarixi abidələri, turizm məkanları ilə bağlı geniş reportajlar hazırlayacağam. Belə məqalələrin mətbuatda yer alması Naxçıvanın turizm potensialının təbliği baxımından əhəmiyyətlidir. Buna görə də media olaraq muxtar respublikada turizmin inkişafına öz töhfəmizi verməliyik.

***Namiq ƏLİYEV – "Palitra" qəzetinin baş redaktoru:*** "Son dövrlərdə Azərbaycanda hörmətli Prezidentimizin rəhbərliyi ilə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilir. Turizm sahəsi də qeyri-neft sektorunun əsas sahələrindən biridir. Bu gün dünyanın bir çox ölkələri turizmə böyük diqqət yetirir. Çünki turizm böyük gəlir gətirən sahələrdəndir. Məsələn, yadımdadır, məqalədə oxudum, elə ölkələr var ki, turizm sektoru onların ümumi daxili məhsulunun 10 faizini təşkil edir. Bu, çox böyük rəqəmdir. Azərbaycanın da turizm potensialı genişdir, o cümlədən də Naxçıvanın. Turizm özü geniş bir sahədir. Onun da müxtəlif qolları var. Məsələn, dini turizm, tibbi turizm, tarixi turizm. Bunların hamısı Naxçıvanda var.



Hər hansı bir ölkəyə səfər edirsənsə, ilk növbədə, gələn qonağı tarixi abidələrlə tanış etməyə çalışırlar. Çünki tarixi abidələr xalqın tarixidir, onun simvoludur. Bu baxımdan da Naxçıvanda tarixi turizmin inkişaf etməsi üçün böyük potensial var. Naxçıvan qədim diyardır. Məsələn, ən qədim yaşayış düşərgələrindən biri Şərurun Tənənəm kəndinin yaxınlığındakı Qazma mağarasıdır. Bu mağara Daş dövründən qalmış bir abidədir. Elə insanlar var ki, doğrudan da, maraqlıdır ki, getsin bu cür mağaraları görsün. Eynilə də onun kimi başqa dövrlərə aid bizim tarixi abidələrimiz var. Məsələn, Atabəylər dövləti təkcə Azərbaycanla bağlı olmayıb. Bu dövlət bütün Anadolunu, İranı, indiki İraq ərazisini əhatə edib. Həmin ölkələrdə yaşayan və tarixlə maraqlanan insanlar arasında vaxtilə Atabəylər dövlətinin paytaxtı olan Naxçıvan şəhərində həmin dövrə məxsus abidələri görmək istəyənlər də çox ola bilər. Yaxud Əmir Teymurun 14 il mühasirədə saxladığı, ancaq məğlub edə bilmədiyi Əlincəqalanı yaxından görmək istəyənlər də muxtar respublikaya gələ bilərlər. Bunun üçün də biz təbliğat aparmalıyıq.

Mənim doğulub, boya-başa çatdığım Sədərək də qədim yurd yeridir. Orada da hər dövrə aid yaşayış məskənləri var. Bütün bunlar bizə Naxçıvanın təbliği ilə bağlı geniş imkanlar açır".

# Şərur rayonunda istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış təşkil olunub

***Şərur Rayon Olimpiya-İdman Kompleksində keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov açaraq bildirib ki, istedadlı qadınların fəaliyyətlərinin dəstəklənməsi Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət qadın siyasətinin tərkib hissəsidir. Bu gün öz istedadları ilə seçilən və rəssamlıq, toxuculuq kimi el sənəti nümunələrini yaşadan qadınlar üçün hər cür şərait yaradılır. Bu, sənət nümunələrinin qadınlarımız tərəfindən qorunub yaşadılması baxımından əhəmiyyətlidir.***

Qeyd edilib ki, ötən il Şərur rayonunda ilk dəfə olaraq keçirilən sərgidə rayonun 81 istedadlı qadınının 460 rəsm və əl işi sərgi-satışa çıxarılıb. Bu tədbirdə isə 87 istedadlı qadın 563 rəsm və əl işi ilə iştirak edir. Sərgidə sulu və yağlı boya ilə işlənən tablolarla yanaşı, tikmə, toxuma, xalçalar və digər dekorativ-tətbiqi sənət nümunələri maraqla qarşılanıb. Xalqımızın qədim tarixini, zəngin mədəniyyətini nümayiş etdirən bu cür sərgilər milli dəyərlərimizin yaşadılması, təbliği, istedadlı insanların üzə çıxarılması, yeni sənətkarlar nəslinin yetişməsi baxımından müstəsna əhəmiyyət daşıyır.



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında qeyd edib ki, ulu öndərimizin əsasını qoyduğu dövlət qadın siyasəti və xalqımızın milli dəyərlərini qoruyub yaşatmaq istiqamətində aparılan ardıcıl tədbirlər Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Bunun nəticəsidir ki, muxtar respublika qadınları dövlət idarəçiliyində, ictimai-mədəni həyatda fəal iştirak edirlər. Muxtar respublikada həyata keçirilən dövlət qadın siyasəti istedadlı qadınlarımızı da əhatə edir, onların üzə çıxarılması və yaradıcılıqlarının inkişaf etdirilməsi üçün müvafiq tədbirlər görülür. İstedadlı qadınlara dövlət dəstəyi xalqımızın mənəvi xəzinəsi, milli varlığımızın mövcudluğunu təmin edən milli dəyərlərimizə və onun keşiyində duran qadınlarımıza dövlət qayğısının növbəti nümunəsidir. Bu qayğının növbəti nümunəsini Şərur rayonunun timsalında da görürük. Belə ki, Şərur rayonunda yaşayan qadınlar dövlət quruculuğunda, ictimai həyatda fəal iştirak edir, muxtar respublikamızın sosial-mədəni inkişafına öz töhfələrini verirlər.

Bildirilib ki, gənc qızların xüsusi peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün peşə kurslarının təşkil olunması, sənət nümunələrinin qadınlarımız tərəfindən qorunub saxlanılması, yaşadılması baxımından mühüm əhəmiyyət kəsb edir. Artıq 2 ildir ki, muxtar respublikanın rayonlarında qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışları təşkil olunur. Rayonlarda ictimaiyyətin marağına səbəb olan və onları milli dəyərlərə daha da yaxınlaşdıran bu sərgi-satışlar yaradıcı qadınları üzə çıxarır. Hər bir rayona məxsus adət-ənənələrin əl işlərində öz əksini tapması, ailə-məişət tərzlərinin, məxsusi xalçaların, bəzək nümunələrinin, gündəlik məişətdə istifadə olunan əşyaların sərgilənməsi sərgi-satışları daha da rəngarəng edir.

Vurğulanıb ki, bu gün Şərur rayonunda yaşayan istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışın təşkil edilməsində məqsəd rayon üzrə qadınlarımızın istedad və bacarıqlarını inkişaf etdirmək, milli dəyərlərimizi, adət-ənənələrimizi gənclərə aşılamaqdır.

Şərur rayon Əlkli kənd tam orta məktəbinin müəllimi Gövhər İsmayılova çıxışında deyib ki, belə tədbirlər istedadlı qadınlara göstərilən diqqətin bariz nümunəsi olmaqla yanaşı, həm də milli və mənəvi dəyərlərimizin yaşadılmasına xidmət edir. O, göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Üç gün davam edən sərgi-satışa Şərur rayonunun ümumtəhsil, yaradıcılıq məktəblərinin, digər müəssisə və təşkilatların kollektivləri böyük maraq göstəriblər.

**Ramiyyə ƏKBƏROVA**



# Gün-güzəran, yaxşı yaşayış elə doğma torpaqdadır

## *Zəhmətkeş təsərrüfat sahibi ilə söhbət*

"Hava yağmurlu olanda ətrafına hündür yulğun kollarından hasar çəkilmiş məktəb binasının novdanlarından daman su sinif otaqlarında özünə əməlli-başlı yer edirdi. Kəndin çal-çəpərsiz həyətlərinə baxan inzibati binaların eyvanında dayanmaq olduqca təhlükəli idi.

70 illik sovet hökumətinin sütunları kimi bu eyvan da silkələnirdi. Kim idi həmin vaxt ucqar dağ kəndini yada salıb onun yollarını çəkən, körpüsünü salan? Kərəntisi, orağı çiynində yellənən kəndlinin məhsuluna da yiyə duran yox idi. Tədarük etdiyi nemət çox vaxt sahədə qalıb məhv olurdu. Kənddə yaşadığım vaxt ağır günlərin fikri, sabaha olan ümidsizlik məni Nəhəcirdən köçməyə vadar etdi. Lakin illər keçdi, dövr dəyişdi, elə bu dövrlə bərabər Nəhəcirin də siması dəyişdi, miskin donunu üzərindən atdı, müasir, abad yurd yerinə çevrildi və mən yenə öz kəndimə qayıtdım".

Bu fikirlərin sahibi, Nəhəcir kənd sakini Seyran Məmmədovdur. Seyran kişi telefonda başladığımız söhbətə burada nöqtə qoydu və israrla dedi ki, "ay oğul, iyirmi ildən çoxdur ki, bu kənddən çıxmışam. Bunların hamısını telefonda sənə necə danışım? Qismət olar, bir gün qeyd dəftərçəni götürüb gələrsən bu tərəflərə. Bir çayımı içərsən, həm halımızdan agah olarsan, həm də ətraflı söhbətləşərik. Ürəyimdəkiləri açıb tökərəm..."

Vaxt itirmədim. İki gün sonra 69 yaşlı təsərrüfat sahibi Seyran müəllimin qonağı olmaq üçün Nəhəcir kəndinə yola çıxdım. Yolboyu vüqarı ilə gözoxşayan Naxçıvan dağlarının təsiri altındaydım. Obrazlı desək, kişi qaməti, məğrurluğu, dəyanəti var bu dağlarda. Ta uzaqdan seçilən bu təbiət monumentləri qol-qanad açaraq sanki gələni qarşılayıb ona "xoş gəldin", – deyir. Bəzilərinin zirvəsi kəllə qənd kimi ağarır... Günəş əyiləndə isə onun öləziyən şüaları bu sıldırım daşların sinəsini döyür, öz hənirtisi ilə isidir. Abad yaşayış məntəqələrindən keçən yol yavaş-yavaş bizi kəndə yaxınlaşdırır, yolun sağında və solunda – bir zaman susuzluqdan cadar atmış düzənliklərdə dalğalanan taxıl zəmiləri, bostanda torpağa zəhmət tərini axıdan kəndlilər tədricən arxada qalırdı. Təbiət də niskilli günlərini çoxdan arxada qoyub. Eynilə nəhəcirli Seyran müəllim kimi.. Bəli, oxucularımıza təqdim edəcəyimiz şəxs bir zamanlar şəraitsizlikdən təngə gələrək doğma kəndini tərk edib Naxçıvan şəhərinə yerləşən, indi isə yenidən Nəhəcirə qayıdıb böyük bir təsərrüfat yaradan Seyran Məmmədovdur.

Uzaqdan diqqəti cəlb edən kənd evləri doğma bala kimi Nəhəcir dağının ətəyinə sığınıb. Son vaxtlar qurulan gənc ailələr hesabına kənddə yeni evlər tikilib, sanki ikinci bir Nəhəcir kəndi salınıb. İnşası aparılan daha bir yaşayış evi isə Seyran müəllimin oğlu Əfqana məxsusdur. Yazın ılıq nəfəsinin duyulduğu ilk vaxtlardan onlar bu ucqar dağ kəndinin yolunu tutublar. Tutduqları yol isə onları daha yaxşı gün-güzəran sahibi edib. 200-ə yaxın xırdabuynuzlu heyvan saxlayan həmsöhbətimiz ötən əsrin sonlarında kəndə "əlvida" deyib Naxçıvan şəhərinə köçsə də, son illər eləməyib tənbəllik, "şələ-şüləsini vurub qoltuğuna" qayıdıb Nəhəcirə. Özü də oğul-uşaqla birgə.

Sözünə dəqiq adamdır. Təyin etdiyimiz vaxtda onunla nişan verdiyi ünvanda görüşdük:

"Tam səmimi fikrimdi. 20 il bundan öncə kənddən çıxan indi Nəhəciri tanıya bilməz. Kəndlinin həyatı dəyişib, elə doğma yurdun görkəmi də. Götürək uzun illər mənim çalışdığım kənd məktəbini. Yaxşı xatirimdədir, 8-ci sinifdən sonra təhsilini davam etdirmək istəyən gərək ya avtomobil, ya da motosiklet sahibi olardı. Çünki buradan qonşu Qahab kəndinə əməlli-başlı məsafə var. Bu yaxınlarda təsərrüfatdan baş ayırıb 1-2 saatlıq kənd məktəbində oldum. Nəvəm Aysunun açıq dərsində iştirak etdim. Təmizliyi ilə gözoxşayan müasir məktəb binası, elektron lövhəli siniflər, zəngin kitabxana, gələcəyimizə can yandıran müəllim kollektivi, internet vasitəsilə muzey şəbəkəsinə qoşulan, kompüterlərin arxasında bilik, savad öyrənən şagirdlərin aktivliyi məni qürurlandırdı. Daha nə deyim, ay oğul?! Orada öyrəndim ki, bu il keçirilən qəbul imtahanında məktəbi bitirən 4 məzundan 3-ü istənilən nəticəni əldə edib. Deməli, təhsil, maarif işığı bu yerlərə də sirayət edib. İllər öncə burada müəllim kimi çalışdığım günlər yadıma düşdü. Bu dəyişikliyi, yeniliyi, inanın, sözlə ifadə etmək mümkün deyil. Növbəti tədris ilində o biri nəvələrimi də bu məktəbə qoyacağam. Hələlik yanımda təsərrüfat işlərində mənə köməklik edirlər. Axı insan təhsil almaqla bərabər, həm də yaxşı peşə sahibi olmalıdır. Onları gələcəyə düzgün hazırlamalıyam. Nəticə etibarilə mən də bir müəlliməm.



Hə, gələk əsas məsələyə. Ailə həyatı qurduqdan sonra müxtəlif dövlət orqanlarında işləmişəm. O zaman kənddən köçməyimin konkret səbəbləri var idi. Qoy kimsə bu işdə məni qınamasın. 2 oğlum, 2 qızım var. Hər iş qalsın bir kənara, övladlarıma təhsil vermək, cəmiyyətə qazandırmaq üçün lazım olan tələbləri köhnə məktəb ödəyə bilmirdi. Ətraf kəndlərdəki məktəblərin də mənzərəsi bizdən fərqlənmirdi. Körpü olmadığı üçün kəndin həndəvərindəki dağ çayını adlayıb Nəhəcirə qədəm qoymaq müşkül məsələyə çevrilmişdi. Günlərlə işıq üzünə həsrət idik. Qaz haqqında isə nə sən soruş, nə mən deyim. Bağımızda nə ağac vardısa, hamısını kəsib odun eləmişdim. Lakin indi evimdə internetə girib Bakı şəhərindəki qohum-qardaşla danışıram və elektrik enerjisinin, təbii qazın kənddə daimi olduğunu onlara deyəndə təəccüblə mənə baxırlar. Vaxt vardı əhalinin şəhərlərə intensiv axını kəndimizdə də "qıfıllı qapı"ların sayını artırmışdı. Hər nə qədər ağır olsa da, bu həqiqət ötən əsrin sonlarında kəndlərimizin imicini simvolizə edirdi. O gün "Şərq qapısı" qəzetindən oxuyuram ki, rayonumuzun ən ucqar dağ və sərhəd kəndləri olan Payızda, Gərməçataqda quruculuq işləri aparılır. Bu, inkişafın göstəriciləri deyilmi? Sakinlərin yurda bağlılıq hissini artırmaq üçün böyük layihələr reallaşdırılır. Bunun ən bariz nümunəsini elə mənim timsalımda görə bilərsiniz. Doğrudur, şəhərdə də mənim evim, işim var idi. Amma bu gün Nəhəcirə bir sahibkar kimi qayıtmışam. Həm torpağının əsl yiyəsi, həm də təsərrüfatında bir neçə kəndlini işlə təmin edən fermer kimi. Bu gün dövlət torpağı əkib-becərmək üçün gübrə də verir, su da, texnika da, hələ lazımi tövsiyələri də. Gün-güzəran, yaxşı yaşayış, dolanışıq bu torpaqdadır. Yaşımın bu çağında bir daha əmin oluram ki, ömür zəhmətlə ucalanda daha mənalı olur. Budur, kəndə "köç"ümün əsas səbəbi.

Həmsöhbətim bizi təsərrüfatı ilə tanış edir. 200-ə yaxın qoyun-quzu, keçi saxlayan Seyran müəllim hazırda burada yardımçı binalar salır. "Çörəyin qədir-qiymətini bilənlər onun bolluğunu da yarada biliblər", – deyir Seyran müəllim. "Mən özüm də bu il payızda 7 hektar sahədə taxıl əkməyi planlaşdırıram. Əbəs yerə demirlər ki, sən torpağa tər tök, o sənə zər versin. İndi tədarük olunan məhsulun yaxşı da bazarı var. Keçi südü, pendiri yeyənlərə yaxşı məlumdur. Həftə sonları Naxçıvan şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının yarmarkasında pendir satıram. Qazanc da yaxşı olur. Üstəgəl, bazarda heç bir rüsum və yer pulu da alınmır. Budur, ayağımın altında maşın və rahat dağ yolu. Bir saat çəkmir məhsulumu satıb geri qayıdıram. Telefonda da sənə demişdim. O illərdə kəndlinin məhsuluna yiyə duran tapılmazdı. Bu gün bütün bu işləri Nəhəcirdə reallaşdıra bilirəmsə, deməli, ölkəmizdə sabitlik, əmin-amanlıq, inkişaf var. İnsana qayğı var. Yadımdan çıxmamış bunu da deyim ki, o gün kəndimizdəki xidmət mərkəzində çalışan Toğrul mənə müraciət edib ki, o pendirdən bir az da göndər dükanda sataq. Kəndə gələn qonaq-qara, – indi siz onlara turist deyirsiniz, – "keçi pendiri" deyir, başqa bir şey demir. İnanın, bu işləri yerinə yetirərkən sanki dünyaya yenidən gəlirəm, cavanlaşıram. Təəssüfləndiyim məqam da odur ki, ömrümün çox hissəsi o çətin günlərə təsadüf elədi. İstənilən halda zaman ən böyük məlhəmdir. O acı xatirələri tez-tez yada salıram. Qoy bizdən sonrakı nəsillər bilsin ki, bu günlər asanlıqla araya-ərsəyə gəlməyib. Min bir zəhmət hesabına əldə olunmuş müstəqillik, sabitlik və onun bəhrələri qapımızadək gəlib çıxıb. Bunun qədrini bilməliyik. Hər kəs öz sahəsində dövlətimizin inkişafına töhfə verməlidir. Mənim kimi kəndçilər torpağı əkməli, təsərrüfatını genişləndirməli, bol məhsul istehsal etməlidirlər. Gənclərimiz yaxşı təhsil almalı, peşə öyrənməlidirlər. Oğul, bir sözlə, əhsən məni şəhərdən yenidən doğma kəndimizə gətirənlərə, yəni bu şəraiti insanlar üçün yaradanlara! Var olsunlar!"

Görün öz kəndini şəhərə dəyişən Seyran kişi kimi yüzlərlə, minlərlə insan muxtar respublika iqtisadiyyatına nə qədər töhfələr verir, neçə-neçə ailəni çörək sahibi edir, həyatlarını dəyişir. Tendensiya isə dəyişilməzdir: artan məskunlaşma, çox zəhmət, bol məhsul və yaxşı yaşayış. Elə dövlətə də, kəndliyə də lazım olan budur.

***Günəş qüruba enir. Dərə-təpələr dağların kölgəsində gözdən itir. Təkcə Nəhəcir dağının zirvəsi işıqlanır. Bir də kənddə hər ocaqdan işıq gəlir, gecə gündüzü xatırladır. Bu işıq isə, sadəcə, elektrik lampasından kənd evlərinə süzülən işıq deyil. Bu işıq yurd yerinin bütün həyatını nurlandıran dövlət qayğısıdır.***

**Muxtar RZAZADƏ**
*"Şərqin səhəri" qəzetinin redaktoru*

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin "Naxçıvan İslam mədəniyyətinin paytaxtı-2018" mövzusuna həsr etdiyi birgə sərgi-müsabiqə keçirilib.***

# "Naxçıvan İslam mədəniyyətinin paytaxtı-2018" mövzusuna həsr olunmuş sərgi-müsabiqə



Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, xüsusi istedad tələb edən bir sənət kimi rəssamlığa balacaların da maraq göstərmələri çox sevindirici haldır. Onların istedadlarının üzə çıxarılması, düzgün formalaşdırılması üçün muxtar respublikada hərtərəfli şərait yaradılıb. Rəssamlar Birliyi onların gələcək sənət yollarında inamla irəliləməsi üçün lazımı dəstəyi verir.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Namiq Novruzov, Naxçıvan Muxtar Respublikası Turist-Diyarşünaslıq Mərkəzinin direktoru Murad Babayev, sənətşünas Nizami Alıyev, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəsm dərnəyinin müəllimi Səkinə Qarayeva çıxış edərək vurğulayıblar ki, muxtar respublikada bütün sahələrdə istedadlı gənclər yetişir. Bu gün rəssamlıq sənətinə maraq göstərən uşaqların da gələcəkdə yaxşı sənət adamı kimi formalaşmasında belə tədbirlərin böyük rolu var. Muxtar respublika rəhbərinin diqqət və qayğısını öz üzərində hiss edən hər bir balaca rəssam bundan sonra da səylə çalışmalıdır.

Çıxış edənlər balaca rəsm həvəskarlarına uğurlar arzulayıblar.

"Naxçıvan İslam mədəniyyətinin paytaxtı-2018" mövzusuna həsr edilmiş "İslamın naxışı" və "Mənim yaradıcılığım" adlı rəsm müsabiqələrinin qaliblərinə və rəsm sərgilərində fəallığına görə fərqlənən balaca rəssamlara diplomlar təqdim edildikdən sonra sərgiyə baxış keçirilib. Burada Rüfət Səfərli, Qeybalı Məmmədov, Novruz Hüseynzadə, Nicat Səfərli, Bağdagül Hüseynova və başqa rəsm həvəskarlarının əl işləri xüsusi maraqla qarşılanıb.

Sərgidə təbiət mənzərələrindən tutmuş cizgi filmləri qəhrəmanlarının rəsmləri, aprel döyüşlərində şəhid olan Milli qəhrəmanlarımızın portretləri də var idi. Uşaqların rəngli dünyası sərgiyə baxmağa gələn hər kəsin diqqətini cəlb edirdi.

Qeyd edək ki, sərgidə 50-yə yaxın istedadlı uşağın 100-dən çox rəsm əsəri nümayiş olunub.

**Fatma BABAYEVA**

# Boks üzrə beynəlxalq turnir keçiriləcək

İdman yarışlarının məkanına çevrilən Naxçıvan Muxtar Respublikası daha bir beynəlxalq turnirə ev sahibliyi edəcək. Belə ki, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirlikləri, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Boks federasiyalarının birgə təşkilatçılığı ilə 10-15 iyun tarixlərində boks üzrə yeniyetmələr arasında "Heydər Əliyev kuboku-2017" beynəlxalq turniri keçiriləcək.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçiriləcək turnirdə iştirak edəcək ölkələrin adları və idmançıların Naxçıvana gələcəkləri vaxt da məlumdur. Belə ki, muxtar respublikada Qırğızıstan (10 boksçu), Gürcüstan (12), Ukrayna (12), Macarıstan (12), Qazaxıstan (13) dəri əlcək sahibləri ilə yanaşı, Azərbaycan (16) və Naxçıvan (17) boksçuları da mübarizə aparacaqlar. Komandalar iyun ayının 10-da muxtar respublikaya gələcəklər.

Ümumilikdə, 100-ə yaxın dəri əlcək sahibinin iştirak edəcəyi turnirin açılış mərasimi iyunun 12-də keçiriləcək. Beynəlxalq turnirin son günündə isə qaliblərin təntənəli surətdə mükafatlandırma mərasimi təşkil ediləcək.

**Ceyhun MƏMMƏDOV**


***Bildiriş***

"Sirab" Açıq Səhmdar Cəmiyyəti səhmdarları 17 iyun 2017-ci il tarixdə keçiriləcək 2016-cı ilin maliyyə yekunları haqqında ümumi yığıncağa dəvət edir.

***İtmişdir***

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Ələkbərova Zöhrə Məmmədtağı qızının adına olan JN-565A inventar nömrəli, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 484